AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyası.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 12 (1472), 13 - 19 aprel 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*




## Avro-2020: Bakıda keçiriləcək oyunların hər birinə Olimpiya Stadionunun ümumi tamaşaçı tutumunun 50 faizi qədər azarkeş buraxılacaq

Ümumdünya Səhiyyə Təşkilatının qərarı ilə ötən il martın 12-də koronavirus epidemiyasının qlobal pandemiya elan olunması nəzərə alınaraq, UEFA İcraiyyə Komitəsinin 2020-ci il martın 17-də keçirilmiş iclasında Avro-2020-nin daha əvvəl açıqlanmış tarixdən düz bir il sonra - 2021-ci il iyunun 11-dən iyulun 11-dək olan müddətdə keçirilməsi barədə qərar qəbul olunub. Bundan əlavə, UEFA-nın qərarında qeyd olunub ki, pandemiya ilə əlaqədar Avro-2020-nin oyunlarının keçiriləcəyi stadionlara azarkeşlərin hansı sayda və hansı prosedurlar əsasında buraxılacağı barədə qərar yerli hökumət və dövlət strukturları tərəfindən qəbul ediləcək.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın və Avro-2020-nin yerli təşkilat komitəsinin birgə iclasında UEFA-nın tövsiyələri və Bakı şəhərində pandemiya ilə bağlı mövcud vəziyyət nəzərə alınaraq Bakıda keçiriləcək 4 oyunun hər birində Bakı Olimpiya Stadionunun ümumi tamaşaçı tutumunun 50 faizi qədər azarkeşin COVID-19-la bağlı müvafiq prosedurların yerinə yetirilməsi şərti ilə iştirak edə biləcəyi barədə qərar qəbul olunub. Qərar yerli azarkeşlərlə yanaşı, oyunlarda iştirak edən milli komandaların mənsub olduğu ölkələrin vətəndaşlarına da şamil olunacaq (viza və koronavirusla bağlı müvafiq tələblərin yerinə yetirilməsi şərti ilə).

Məsələ ilə bağlı bütün zəruri məlumatlar UEFA-ya təqdim olunub.

Azarkeşlərin Avro-2020-nin Bakı şəhərində keçiriləcək oyunlarını stadionda izləməsi üçün tətbiq olunacaq prosedurlar ilə əlaqədar yaxın gələcəkdə ictimaiyyətə daha ətraflı məlumat veriləcək.

## Ağırlıqqaldıranlarımız Avropa çempionatını uğurla başa vurublar

Moskvada kişilər və qadınlar arasında ağırlıqqaldırma üzrə Avropa çempionatı keçirilib. Azərbaycan Ağır Atletika Federasiyasından verilən məlumata görə, 40 ölkədən 361 idmançının (179 qadın, 182 kişi) iştirak etdiyi yarışda baş məşqçilər Asif Məmmədov (kişilər) və Sərdar Həsənovun (qadınlar) rəhbərliyi altında Azərbaycan yığma komandasının üzvləri də qüvvələrini sınayıblar. Komandamız qitə çempionatını uğurla başa vurublar. Təmsilçilərimizdən ilk olaraq Boyanka Kostova körpücük üzərinə çıxıb. O, 59 kq çəki dərəcəsində mübarizə aparıb. Atletimiz birdənqaldırma hərəkətində 95 kq nəticə ilə bürünc, təkanla qaldırma hərəkətində isə 116 kq ilə qızıl medal qazanıb.

Ümumilikdə 211 kiloqram (95 kq + 116 kq) nəticə göstərən B.Kostova yekun sıralama da Avropa çempionatının qızıl medalına sahib çıxıb.

Xatırladaq ki, B.Kostova 2012-ci, 2015-ci və 2016-cı illərdəki Avropa çempionatlarının və 2015-ci ildəki dünya çempionatının da qalibidir.

Kişilərin yarışında isə Əliş Nəzərov və Dadaş Dadaşbəyli 102 kiloqram çəki dərəcəsində mübarizə aparıblar. Əliş Nəzərov ümumilikdə 315 kiloqram (141 kq + 174 kq) nəticə göstərib və 13-cü yeri tutub.

Dadaş Dadaşbəyli isə böyük uğur qazanıb. Atletimiz birdənqaldırma hərəkətində 177 kiloqram nəticə ilə bütün rəqiblərini üstələyib və qızıl medala sahib çıxıb. Təkanla qaldırmada 202 kiloqram nəticə göstərən idmançımız 7-ci olub. Ümumilikdə, 279 kiloqram (177 kq + 202 kq) nəticə göstərən D.Dadaşbəyli yekun sıralamada bürünc medala sahib çıxıb.




AZERBAIJAN

AZƏRBAYCAN MİLLİ OLİMPİYA KOMİTƏSİNİN ƏDALƏTLİ OYUNLAR KOMİSSİYASI

**Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası, "Olimpiya dünyası" qəzeti ilə birgə " İdman və Ədalətli Oyunlar" mövzusunda rəsm müsabiqəsi**

## ELAN EDİR

**"İdman və Ədalətli Oyunlar" mövzusunda rəsm müsabiqəsi 15 aprel-15 iyun 2021-ci il**

**Müsabiqənin müddəti:** 15 aprel-15 iyun 2021-ci il;

**Müsabiqə qaliblərinin elanı:** 30 iyun 2021-ci il;

Yaş qrupu: 3-8, 9-16; Müsabiqədə paytaxt və bölgələrdən istənilən Azərbaycan Respublikası vətəndaşı iştirak edə bilər;

**Mükafatlar:**

Bütün iştirakçılara MOK-un Ədalətli Oyunlar Komissiyası tərəfindən Sertifikat təqdim ediləcək, qaliblərə, 4-cü və 5-ci yerlərin sahiblərinə həvəsləndirici mükafatlar veriləcək;

İştirakçılar müsabiqəyə A4 vərəqi ölçüsündə olan rəsmlərlə qatıla bilər;



Müsabiqə iştirakçıları istənilən boya növü və rəsm texnikasından istifadə etməkdə sərbəstdir. Rəsmlər ancaq əl işlərindən ibarət olmalı, onların hazırlanması zamanı heç bir kompyuter və ya digər texnologiya vasitələrinin imkanlarından istifadəyə yol verilməməlidir;

Hər iştirakçı müsabiqəyə ən çox 2 rəsm təqdim edə bilər;

Rəsmin üzərində və ya arxasında iştirakçının adı, soyadı və yaş qrupu, əlaqə nömrəsi qeyd olunmalıdır; Rəsmlər 15 iyun 2021-ci il tarixədək **olimpiya_dunyasi@mail.ru** elektron poçt ünvanına göndərilməlidir;

Son müraciət tarixindən sonra daxil olan rəsmlər qeydə alınmayacaqdır;

Müsabiqə qaliblərinin adları və rəsmləri KİV-də, sərgilərdə və sosial media səhifələrində təqdim ediləcəkdir;

**Əlaqə nömrəsi:** 055 709-95-57; 440- 14- 93

**Elektron poçt:** olimpiya_dunyasi@mail.ru

"Azərbaycana Tokiodan qızıl medal gətirmək istəyirəm" Səh. 3

**Elvin Hidayətzadə:**
***"Dəfələrlə mühasirəyə düşsək də, döyüşçü ruhumuz bir an belə sarsılmadı"*** Səh. 4

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik* **olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*



Gimnastika

## Aerobika gimnastlarımız Misirdə ikinci oldular




Misirin paytaxtı Qahirədə aerobika gimnastikası üzrə "Egyptian Pharaohs Cup" adlı beynəlxalq turnir keçirilib. Yarışda Azərbaycan idmançıları da təmsil olunublar. Gimnastlarımızın beynəlxalq turnirdəki çıxışı uğurlu alınıb. Aerobika gimnastikası üzrə yığma komandamızın üzvləri Vladimir Dolmatov və Mədinə Mustafayeva qarışıq cütlüklər arasında fərqlənərək fəxri kürsünün ikinci pilləsinə yüksəliblər.

## Bədii gimnastlarımız beynəlxalq turnirdə gümüş medala layiq görülüblər

Bədii gimnastika üzrə yığma komandamızın üzvləri Finlandiya Gimnastika Federasiyasının dəvəti ilə onlayn turnirdə iştirak ediblər. Ölkəmizi Zeynəb Hümmətova, Məryəm Səfərova, Darya Sorokina, Ləman Əlimuradova və Yelizaveta Luzandan ibarət qrup hərəkətləri komandası, fərdi proqramda isə Arzu Cəlilova və Nərminə Səmədova təmsil ediblər.

Uğurları ilə hər kəsi daim sevindirən qrup hərəkətləri komandamız bu dəfə də medalsız qalmayıb. Üç halqa və 2 cüt gürzlərlə nümayiş etdirdikləri çıxışlarına görə gimnastlarımız gümüş medal qazanıblar.

* * *

Aprelin 16-18-də Özbəkistanın paytaxtı Daşkənddə bədii gimnastika üzrə dünya kuboku yarışları keçiriləcək.

Turnirdə ölkəmizi fərdi yarışlarda Arzu Cəlilova və Nərminə Səmədova təmsil edəcəklər.

Qeyd edək ki, Bolqarıstanın paytaxtı Sofiyada təşkil olunan öncəki dünya kuboku yarışlarında Zeynəb Hümmətova, Ləman Əlimuradova, Yelizaveta Luzan, Məryəm Səfərova və Darya Sorokinadan ibarət qrup hərəkətləri komandamız iki medala sahib olub.

## MDB Oyunları ilə bağlı iclas keçirilib

2021-ci il sentyabrın 4-dən 11-dək Kazanda keçiriləcək MDB ölkələrinin I Oyunlarının iştirakçıları 16 idman növü üzrə 193 dəst medal uğrunda mübarizə aparacaqlar. Bu barədə videokonfrans formatında keçirilən Oyunların hazırlanması və keçirilməsi üzrə İşçi Qrupunun iclasında məlumat verilib. İclasda



Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Özbəkistan və MDB İcraiyyə Komitəsinin nümayəndələri iştirak ediblər.

İşçi Qrupu, Rusiya Federasiyasının İdman Nazirliyi və Tatarıstan Respublikasının İdman Nazirliyi tərəfindən yarışların müəyyən edilmiş müddətlərdə və tam həcmdə hazırlanması üzrə tədbirlərin həyata keçirildiyini qeyd edərək, Oyunların keçirilməsinin reqlamentinin dəqiqləşdirilmiş layihəsini bütövlükdə bəyəniblər.

Bədən tərbiyəsi və idman sahəsində dövlət hakimiyyəti orqanlarının mayın 4-dək Rusiya İdman Nazirliyinə MDB ölkələrinin I Oyunlarına idman nümayəndə heyətləri rəhbərlərinin namizədlərinə dair təkliflər göndərməsini, Oyunlarda iştirak etmək üçün ərizələrin verilməsinin təmin edilməsini xahiş etmək qərara alınıb.

MDB ölkələrinin Oyunları 2019-cu ilin oktyabrında Birlik Hökumət Başçıları Şurasının qərarı ilə təsis edilib. Onların keçirilməsi MDB-nin mədəni-idman potensialını artırmağa, ölkələr arasında çoxtərəfli dialoqun inkişafı üçün səmərəli meydan əldə etməyə imkan verəcək.

Oyunların iki ildən bir növbə ilə MDB dövlətlərinin hər birində keçirilməsi planlaşdırılır. Bununla belə həm Birlik ölkələrindən, həm də digər dövlətlərdən olan komandalar iştirak edə bilərlər. Yarışların proqramını Oyunlar haqqında Əsasnaməyə əsasən təşkilatçı ölkə müəyyən edəcək.

MDB ölkələrinin Kazanda keçiriləcək I Oyunlarında 23 yaşadək 3 minə yaxın idmançının iştirak edəcəyi planlaşdırılır. Tədbirlərin keçirilməsi üçün 12 idman obyekti fəaliyyət göstərəcək. MDB ölkələrinin I Oyunlarının loqosu Simurq quşu, talismanı isə Bəbir seçilib.

Oyunlar çərçivəsində bədən tərbiyəsi və idmanın inkişafı məsələlərinə dair işgüzar proqram tədbirlərinin, eləcə də MDB-nin iştirakçı dövlətlərinin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Sazişin iştirakçılarının, bədən tərbiyəsi və İdman Şurasının növbəti iclasının keçirilməsi planlaşdırılır.

## Xəzər İsayev:

## *"Azərbaycan Ədalətli Oyunlar Komissiyası fəaliyyətini uğurla davam etdirir"*

Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə 1997-ci ildə yaradılan Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası (AzƏOK) uğurlu fəaliyyəti ilə seçilir. 1998-ci ildən Beynəlxalq və Avropa Ədalətli Oyunlar Hərəkatının üzvü olan AzƏOK-un təşkilatçılığı ilə ölkəmizdə bir sıra yerli və beynəlxalq tədbirlər keçirilib. Belə tədbirlərdən biri də, AzƏOK və MOK-un rəsmi mətbuat orqanı olan "Olimpiya dünyası" qəzetinin birgə təşkilatçılığı ilə keçirilən "İdman və Ədalətli Oyunlar" mövzusunda rəsm müsabiqəsidir.

Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti, AzƏOK-un sədri Xəzər İsayev bu qurumun son dövrlərdəki fəaliyyəti və adıçəkilən rəsm müsabiqəsi ilə bağlı "Olimpiya dünyası" qəzetinə müsahibə verib.

***- Xəzər müəllim, AzƏOK-un ötənilki fəaliyyətini necə dəyərləndirirsiniz?***

- Azərbaycan Ədalətli Oyunlar Komissiyası yarandığı dövrdən indiyədək uğurlu fəaliyyətini davam etdirir. Son dövrlərdə pandemiya səbəbindən tədbirlərimizi onlayn qaydada təşkil etməyə çalışırıq. Hər il olduğu kimi, bu il də idman ilinin yekunlarına əsasən müxtəlif nominasiyalar üzrə Ədalətli Oyunlar Hərəkatına sadiq olanları mükafatlandırdıq. Martın 5-də Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında ilin idman yekunlarına dair keçirilən tədbirdə 5 nominasiya üzrə 2020-ci ilin ən yaxşıları mükafatlandırıldı. Mikayıl Cabbarov "Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi", CBC Sport-un "Olimpiya günü" proqramı "Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı", Aygül Abdullayeva "Ədalətli oyun prinsiplərinə sadiq hakim", Namiq Abdullayev "Ədalətli oyun prinsiplərinə sadiq məşqçi", Rüstəm Orucov isə "Ədalətli oyun prinsiplərinə sadiq idmançı" nominasiyaları üzrə təltif edildilər.

***- AzƏOK-un son dövrlərdə Avropa və Beynəlxalq Ədalətli Oyunlar Hərəkatı ilə əlaqələri hansı səviyyədə qurulub?***

- Beynəlxalq Ədalətli Oyunlar Hərəkatı ilə qarşılıqlı fəaliyyətimizi işgüzar və səmimi əlaqələr müstəvisində qurmuşuq. İndiyədək Ədalətli Oyunlar Hərəkatı ilə bağlı bir çox beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi bizə göstərilən etimadın bariz nümunəsidir. Hazırda bütün dünyada pandemiya səbəbindən tədbirlərin onlayn qaydada keçirilməsinə üstünlük verilir. Biz də Avropa və Beynəlxalq Ədalətli Oyunlar




Hərəkatının tədbirlərinə onlayn qaydada qoşulur və təşkilat nümayəndələri ilə mütəmadi əlaqə saxlayırıq. Qeyd edim ki, bu il Azərbaycan həmçinin Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) "İdman mənim üçün nə deməkdir" mövzusunda uşaqlar arasında keçirdiyi onlayn rəsm müsabiqəsində də 3 rəsm əsəri ilə təmsil olundu. Bu müsabiqəyə bütün dünya ölkələrindən nümayəndələr qatılmışdı. Xatırladım ki, keçən il də BƏOK-un müsabiqəsində də iştirak etmişdik.

***- Yeri gəlmişkən, AzƏOK tərəfindən "Olimpiya dünyası"qəzeti ilə birlikdə yeni rəsm müsabiqəsinə start verilib. Bu barədə ətraflı məlumat verərdiniz.***

- AzƏOK tərəfindən indiyədək ölkəmizdə müxtəlif təbliğat xarakterli tədbirlər təşkil edilib. Bu dəfə MOK-un rəsmi mətbuat orqanı olan və Ədalətli Oyunlar Hərəkatı ilə bağlı daim geniş təbliğat işləri aparan "Olimpiya dünyası" qəzeti ilə birgə uşaqlar arasında rəsm müsabiqəsinin keçirilməsinə qərar verdik. Aprelin 15-dən "İdman və Ədalətli Oyunlar" mövzusunda rəsm müsabiqəsinə start verilib. 15 iyun 2021-ci il tarixədək davam edəcək müsabiqədə 3-8, 9-16 yaş qrupu üzrə paytaxt və bölgələri təmsil edən hər bir Azərbaycan Respublikasının vətəndaşı iştirak edə bilər. Qaliblər peşəkar münsiflər heyəti tərəfindən müəyyənləşəcək və hər bir iştirakçıya AzƏOK-un sertifikatları, qaliblərə mükafatlar təqdim olunacaq. Müsabiqənin mükafat fondu da artıq müəyyənləşib. Rəsmlər idmanda ədalət prinsiplərini əks etdirməlidir. Təbii ki, Ədalətli Oyunlar prinsipi təkcə idmanda deyil, gündəlik həyatımızda da mühüm əhəmiyyət kəsb edir. İştirakçılar bu mövzu ilə bağlı düşüncələrini sərbəst şəkildə rəsm əsərində əks etdirə bilərlər. Müsabiqə iştirakçıları istənilən boya növü və rəsm texnikasından istifadə etməkdə sərbəstdirlər. Rəsmlər 15 iyun 2021-ci il tarixədək **olimpiya_dunyasi@mail.ru** elektron poçt ünvanına göndərilməlidir. İştirakçılar müsabiqənin şərtləri barədə daha ətraflı məlumatı **"Olimpiya dünyası"** qəzetindən (həmçinin **olimpiyadunyasi.com** gündəlik onlayn qəzetindən) və **olimpnews.az** saytından əldə edə bilərlər.

## Taekvondoçularımız Avropa çempionatını 2 medalla başa vurdular

Aprelin 8-11-də Bolqarıstanın paytaxtı Sofiyada böyüklər arasında taekvondo üzrə Avropa çempionatı keçirilib. Komandamız G4 kateqoriyalı yarışda Azəbaycan Taekvondo Federasiyasının vitse-prezidenti Niyaməddin Paşayevin rəhbərliyi altında 11 idmançı ilə təmsil olunub. Yığma komandamız qitə çempionatını iki medalla başa vurub. Kişilər arasında Milad Beigi Hərçəqani (80 kq) gümüş, qadınlardan Minayə Əkbərova (46 kq) isə bürünc medalla kifayətlənib.

Yarışın birinci günündə mübarizə aparan taekvondoçumuz Minayə Əkbərova (46 kq) səkkizdəbir finalda Özlem Güris (Almaniya), dörddəbir finalda isə bolqarıstanlı Qabriele Katsarovaya qalib gələrək yarımfinala vəsiqə qazanıb. Növbəti mərhələdə rusiyalı Larisa Medvedevaya məğlub olan təmsilçimiz bürünc medala sahib çıxıb. Bu, 19 yaşlı idmançımızın karyerası ərzində böyüklər arasında yarışlarda qazandığı ilk uğurudur.

Komandamızın digər üzvü Milad Beigi Hərçəqani isə yarışa Aleksandr Filippov üzərində qələbə ilə başlayıb. O, israilli rəqibini 25:2 hesabı ilə məğlub edib. Hərçəqani ardınca Tahir Gülecə (Almaniya) 24:1, Raul Martinesə (İspaniya) 12:6 hesabı ilə qalib gələrək finala yüksəlib. Taekvondoçumuz həlledici görüşdə rusiyalı Maksim Kramtçovla üz-üzə gəlib. O, gərgin keçən döyüşdə üç raundda üstün olsa da, son anda rəqib hesabı bərabərləşdirib (12:12) və yekunda qızıl xalla qalib gəlib. Nəticədə idmançımız yarışı gümüş medalla bitirib. Bu, onun Avropa çempionatında 3-cü mükafatı olub. 5 il öncə qitə birinciliyində qızıl medal qazanan legioner idmançımız 2018-ci ildə bürünc mükafata da sahib olub.

Məlumat üçün bildirək ki, Ümumdünya Taekvondo Federasiyasının Olimpiya reytinq cədvəlində Maksim Kramtsov



ilk pillədə, Milad Beiqi isə ikinci pillədə qərarlaşıb. Hər iki idmançı artıq növbəti Yay Olimpiya Oyunlarına lisenziyaları təmin ediblər.

Qeyd edək ki, Avropa çempionatında ədalət təmsilçilərimizdən Azərbaycan Taekvondo Federasiyasının baş hakimi, beynəlxalq dərəcəli hakim Gündüz Abdullayev də ölkəmizi hakim olaraq təmsil edib.

# Elxan Məmmədovdan “Avro-2020” ilə bağlı açıqlama

“Avro-2020-nin Bakı Olimpiya Stadionunda keçiriləcək oyunlarında azarkeşlərin iştirakı ilə bağlı bütün müvafiq sənədlər, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı UEFA-ya göndərilib. Turnirə ev sahibliyi edəcək digər şəhərlər haqqında da ümumi məlumat artıq paylaşılıb. Sevindirici haldır ki, Bakıda keçiriləcək oyunlar zamanı stadionun tamaşaçı tutumunun 50 faizi qədər azarkeşin qarşılaşmaları tribunalardan izləməsi mümkün olacaq”.



Bunu AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov deyib. O bildirib ki, Avro-2020-nin təşkil olunacağı digər şəhərlərdə rəqəmlər müxtəlifdir. Ümid edirəm ki, çempionatın keçiriləcəyi bütün şəhərlərdə azarkeşlərin iştirakı minimum 50 faizə qədər təmin ediləcək. Mayın 15-də bilet satışı bərpa olunacaq. Stadionun ümumi tamaşaçı tutumunun cəmi 50 faizinə azarkeşlərin buraxılacağını nəzərə alaraq, futbolsevərlərə biletlər satışa çıxan kimi tələsməyi tövsiyə edərdim.

“Bizi maraqlı oyunlar gözləyir. Xüsusilə, qardaş Türkiyə millisinin iki oyununun Bakıda keçiriləcəyini bir daha xatırlatmaq istərdim. Özünəməxsus futbol ənənələrinə malik Uels və İsveçrə millilərinin qarşılaşmasının da maraqlı olacağına şübhə etmirəm. Bakı Olimpiya Stadionunda izləyəcəyimiz 1/4 final oyununda isə Avropa çempionu adına iddialı iki komandanın qarşılaşa biləcəyi istisna olunmur. Stadiona girişlə bağlı qaydaları bilet satışı başlamazdan öncə ətraflı şəkildə təqdim edəcəyik. Sağlam olaq və böyük futbol həyəcanına birgə şahidlik edək”, - deyə E.Məmmədov əlavə edib.

# “Azərbaycana Tokiodan qızıl medal gətirmək istəyirəm”




Rusiyanın paytaxtı Moskvada keçirilən ağırlıqqaldırma üzrə kişilər və qadınlar arasında Avropa çempionatı başa çatdı. Yarışlarda ölkəmizə üç medal qazandıran Boyanka Kostova dördüncü dəfə qitənin ən güclü idmançısı adına layiq görüldü. Yığma komandamızın üzvü iki hərəkətin cəmində 211 kq (95 kq + 116 kq) nəticə göstərdi. “Olimpiya dünyası” qəzeti yarışdan sonra xanım idmançı ilə əlaqə saxlayıb, onun qələbə təəssüratlarını öyrəndi.

***- Boyanka, səni qələbə münasibətilə təbrik edirik. Moskvada keçirilən Avropa çempionatında bayrağımızı dalğalandırdın. Çıxışını necə qiymətləndirirsən?***

- Qələbə qazandığıma görə çox sevincliyəm. Çünki bu nailiyyət üçün yetərincə böyük əmək sərf etmişdim. Avropa çempionatı güclü turnirdir və burada qalib gəlmək həmişə qürurvericidir. Əsas odur ki, hazırlığımız hədər getmədi. Uzun müddətdən sonra lazımi nəticəni əldə etdim.

***- Çıxış etdiyin çəki dərəcəsində yeni rəqiblərin var idi. Lakin illərdən bəri qazandığın təcrübə öz sözünü dedi. Bu barədə nə deyərdin?***

- Bəli, düz vurğuladınız. Təcrübə çox vacib amildir. İdman dinamikdir. Hər dəfə yeniliklərlə, yeni rəqiblərlə üz-üzə gəlirsən. Hədəfə çatmaq üçün yeniliklərlə ayaqlaşıb, rəqibləri qabaqlamalısan. Mən bütün rəqiblərimə hörmətlə yanaşıram. Onları bir rəqib kimi çox ciddi qəbul edirəm. Bu, idmanda çox vacibdir. Beynəlxalq arenada uğur qazanmaq istəyən hər kəs belə etməlidir. Yarışa doğru köklənmə və analiz məşqlərin özü qədər vacibdir. Bu işdə məşqçilər heyətimizin xüsusi rolu əldə etdiyim qələbədə də mənə çox yardımçı oldu.




***- Pandemiya səbəbindən bir sıra yarışlar təxirə salınıb. Təlim-məşqlər əvvəlki kimi keçirilmir. Bu yarışa necə hazırlaşmışdın?***



- Dünyada tüğyan edən pandemiya hər kəsin planlarına, məşq prosesinə, hazırlığına mane oldu. Bir sıra çətinliklərlə üzləşsəm də, bu işin öhdəsindən gəldik. Çempionata daha çox fərdi şəkildə məşğul olub, hazırlaşdım. Azərbaycan Ağır Atletika Federasiyasının rəhbərliyi mənə çox dəstək oldu. Yarışlara köklənməyim üçün bütün imkanlar yaradıldı. Biz bir komanda olaraq çalışdıq və nəticəsi də bu qızıl medal oldu.

***- Tokio-2020 Yay Olimpiya oyunlarında ölkəmizi təmsil etmək imkanın var. Bu barədə nə deyə bilərsən?***

- Əlimdən gələn hər şeyi edəcəyəm. Buna əmin ola bilərsiz. Azərbaycana Tokiodan qızıl medal gətirmək istəyirəm. Bunun üçün bütün qüvvəmi səfərbər edib, məqsədimə çatmağı düşünürəm. Hər bir idmançı üçün Olimpiya Oyunlarında uğur qazanmaq böyük arzudur. Arzum üçün hər bir çətinliyin öhdəsindən gəlməyə çalışacağam. Qeyd edim ki, bu mənim son olimpiadam olacaq. Fürsəti əldən vermək istəmirəm.

***- Bütün dünyada olduğu kimi, Bolqarıstanda da pandemiya səbəbindən bir sıra qadağalar tətbiq olundu. Karantin dövrünü necə keçirdin?***

- Mən də müvafiq qaydalara riayət edirdim. Ev şəraitində oturmaq bir qədər çətin idi. Amma hamı kimi biz də bunla razılaşmalı olduq. Bilirəm, mənim kimi hamı bu pandemiyanın bitəcəyi günü səbirsizliklə gözləyir. Buna görə də səbr edib, sosial məsafə saxlamalı, tibbi maska taxmalı, şəxsi gigiyena məsələlərinə fikir verməliyik. Çünki sağlamlıq hər şeydən üstündür.

*Anar Əhmədov*

IBSA JUDO GRAND PRIX BAKU 2021

# Paralimpiyaçılarımız Tokio-2020-yə indiyədək 9 lisenziya qazanıblar

Azərbaycan idmançıları Tokio şəhərində keçiriləcək XVI Yay Paralimpiya Oyunlarına indiyədək 9 lisenziya qazanıblar.

Lisenziyalar atletika (3), atıcılıq (2), üzgüçülük (3) və pauerliftinq (1) üzrə əldə edilib.

Paralimpiya Oyunlarına vəsiqəni atletika üzrə Oloxan Musayev, Samir Nəbiyev, Kamil Əliyev, üzgüçülük üzrə Raman Salei, Dana Şandıbina, Vəli İsrafilov, güllə atıcılığı üzrə Yelena Taranova, Kamran Zeynalov, pauerliftinq üzrə Elşən Hüseynov qazanıblar.

Hazırda lisenziya yarışları davam edir.

Rio Olimpiadasının gümüş mükafatçısı, cüdo üzrə yığma komandamızın üzvü Rüstəm Orucov koronavirusdan sağalıb. Bu barədə cüdoçu özü şəxsi instaqram hesabında məlumat verib. Bir müddət əvvəl koronavirusa yoluxan idmançımız hazırda səhhətinin yaxşı olduğunu və dünya çempionatına hazırlaşdığını bildirib.

## Olimpiya mükafatçımız koronavirusdan sağaldı



“Təqribən 20 gün öncə COVID-19 testim müsbət çıxdı. Bu səbəbdən Portuqaliyada keçiriləcək qarşıdakı Avropa çempionatında iştirak etməyəcəyəm. Yaxşıyam və medal qazanmaq istədiyim dünya çempionatına hazırlaşıram. Hər şey yaxşı olacaq. Növbəti yarışlarda sizinlə görüşməyi səbirsizliklə gözləyirəm”, - deyə 30 yaşlı idmançı paylaşımda məlumat verib.

Qeyd edək ki, cüdo üzrə dünya çempionatı bu il 6-13 iyun tarixlərində Macarıstanın paytaxtı Budapeştdə təşkil olunacaq.

# Avropa çempionatının seçmə mərhələsi üçün heyət açıqlandı

Kişi voleybolçulardan ibarət Azərbaycan millisinin Avropa çempionatının seçmə mərhələsi üçün heyəti açıqlanıb.

Millimizin baş məşqçisi Fərid Cəlalov Avropa çempionatının seçmə mərhələsi üçün 16 oyunçu sifariş edib.

CEV EuroVolley 2021 Qualifiers

Millimizin heyətində toppaylayıcılar - Tural Həsənli, Mirəşrəf Rzazadə, Uğur İbrahimov, blokçular - Elmin Alışanov, Yeqor Nikulenko, Dmitri Obodnikov, Dmitri Baranov, Ramazan Ağabəyov, hücumçular - Mais Verdizadə, Aqil Əlizadə, Ruslan Əliyev, Pərviz Səmədov, Sənan Dünyamalıyev və Andrey Vasilenko, liberolar - Emil Abdullayev və Kənan Allahverdiyev yer alıblar.

Qeyd edək ki, millimiz Avropa çempionatının seçmə mərhələsində F qrupunda Gürcüstan, Monteneqro və Yunanıstan yığmaları ilə qarşılaşacaq. Görüşlərə mayın 5-də start veriləcək.

# Kikboksinqçilərimiz Türkiyədən 3 medalla qayıdıblar



Türkiyənin Antalya şəhərində kikboksinq üzrə VI Beynəlxalq Türkiyə Açıq turniri adlanan Avropa Kuboku turniri keçirilib. Komandamız yarışda 4 idmançı ilə təmsil olunub. Azərbaycan Kikboksinq Federasiyasından “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə komandamız turniri 2 qızıl və 1 gümüş medalla başa vurublar.

Qızıl medalları komandamıza gənclər arasında yarışan Akif Quluzadə (54 kq) və Qəşəm Məmmədov (63,5 kq) qazandırıb. Komandamızın digər üzvü Anar Məmmədov isə 57 kq çəki dərəcəsində (böyüklər) gümüş medala sahib çıxıb.

Yarışda Azərbaycanın iki hakimi - Aydın Ağabəyov və Anar Məmmədov ədaləti qoruyublar.

Vətən müharibəsinin idmançı qəhrəmanları

# Elvin Hidayətzadə:
# “Dəfələrlə mühasirəyə düşsək də, döyüşçü ruhumuz bir an belə sarsılmadı”



**“Hər an həyatla vidalaşa bilərdik”**

*Kitablara sığmayan qəhrəmanlıq ənənələri ilə zəngin olan Azərbaycan əsrlərə söykənən qədim tarixə sahibdir. Ölkəmizin mərd oğulları XXI əsrdə də qəhrəman əcdadlarının davamçıları olduqlarını sübut etdilər. Qəhrəman hərbçilərimiz illər sonra 44 gün müddətində Xarı bülbül qoxulu Qarabağımızı düşməndən azad edərək, ona yeni nəfəs verdilər.*

*Müharibə başlayan ilk gündən müharibə iştirakçılarını diqqətdən kənarda qoymayan “Olimpiya dünyası” qəzeti yenə də ənənəsinə sadiq qalır. Qəzetimizin “Vətən müharibəsinin idmançı qəhrəmanları” rubrikasının bu dəfəki qonağı “Ekspress Baku” voleybol klubunun idmançısı Elvin Hidayətzadədir.*

*Qəhrəmanımız 1998-ci il yanvarın 2-də Masallı şəhərində anadan olub. 2004-2015-ci illərdə İsfəndiyar Zülalov adına Masallı şəhər 5 saylı orta məktəbində təhsil alıb. Həmçinin o, Masallı rayonu musiqi məktəbində 7 illik fortepiano təhsilinə də yiyələnib. İdmançımız 2019-cu ildə Azərbaycan Texniki Universitetini bitirdikdən sonra hərbi xidmətə yollanıb. Hərbi xidmətini Bakıda keçən Elvin, 2020-ci il iyul ayında xidmətini şərəflə başa vurub.*

*Lakin tale elə gətirdi ki, Elvin tezliklə yenidən ordu sıralarına qoşulmalı olub. Torpaqlarımızın azadlığı uğrunda canından keçməyə belə hazır olan idmançımız döyüşlərdə ona tapşırılan vəzifənin öhdəsindən layiqincə gəlib. Cəsur döyüşçümüz müharibədən sonra “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.*

*Bu yaxınlarda Elvinlə redaksiyamızda görüşüb, müharibə xatirələri, dəfələrlə mühasirəyə düşməsi və ümumilikdə voleybol karyerası haqda danışdıq.*

***- Elvin, söhbətimizə müharibəyə yollanmağından başlayaq. Həmin anları necə xatırlayırsan?***

- Sentyabrın 21-də təlimlərimiz başladı və biz Ağcabədiyə yola düşdük. Bir müddət orada təlim keçdikdən sonra Füzuliyə doğru istiqamətləndik. Sentyabrın 26-da isə Lələtəpə yüksəkliyində məskunlaşdıq. Qəhrəman hərbçilərimizin şücayəti sayəsində Füzuli rayonu düşməndən azad edildi. Noyabrın əvvəllərində isə artıq Xocavəndə doğru yol aldıq. İşğal olunan ərazilərimizə getmək, həmin yerləri görmək hər zaman arzum olub. Çox sevinirəm ki, bu arzum ürəyimdə qalmadı və Qarabağa getmək mənə də qismət oldu.

***- Müharibədə təhlükəli anlarla yəqin ki, çox rastlaşmısan?***

- Əraziləri tam dəqiq tanımadığımız üçün, bir neçə dəfə mühasirəyə düşdük. Yadıma gəlir ki, duman səbəbindən səhv yolda olduğumuzu anladıq. Lakin artıq çox gec idi. Düşmənlə demək olar ki, 150-200 metr məsafəmiz vardı. Biz mühasirəyə düşdüyümüzü anladığımız anda ermənilər olduğumuz yeri atəşə tutdu. Hər birimiz minamyotlardan və güllələrdən qorunmaq üçün yerə uzandıq. Geriyə qayıtmaq üçün uzun müddət minamyotların atəşinin kəsilməsini gözlədik. Bir müddət sonra atəş səsləri kəsildi və ehtiyatla ayağa qalxmağa başladıq. Amma düşmən bizim tərəfdə hərəkət gördüyü anda yenidən müxtəlif silahlarla atəş açmağa başladı. Onlar bizi rahatlıqla görürdü. Biz isə hündürlüyün və hava şəraitinin dumanlı olması səbəbindən onları görməkdə çətinlik çəkirdik. Atəşin dayanmayacağını anlayıb, sürünərək əvvəlki ərazimizi tapmağa nail olduq.

Dəfələrlə mühasirəyə düşsək də, döyüşçü ruhumuz bir an belə sarsılmadı. Tezliklə ordumuzun səyi nəticəsində həmin ərazi düşməndən azad olundu.

***- Mühasirədə olduğun anlarda düşüncələrin sənə nə deyirdi?***

- Təsəvvür edin ki, açıq ərazidə başımızı tutub yerdə uzanmışıq və hər an atəş açılacağını bilirik. Düşmən top atəşi endirəndə onun səsini eşidir, hara düşəcəyini fikirləşirdik. Yəni əlimizdən sadəcə, uzanıb, atəşin bizə çatıb-çatmayacağını gözləmək gəlirdi. Sözün əsl mənasında, ölümlə üz-üzə dayanmışdıq. Yəni hər an həyatla vidalaşa bilərdik.

Noyabrın 8-i dəhşətli günlərdən biri kimi yaddaşımda qalacaq. Müharibənin bitməsinə bir gün qalmış mühasirəyə düşdük. Ermənilər bizi dayanmadan minamyotlarla atəşə tuturdu. Təəssüf ki, həmin vaxt 2 hərbçimiz ölümün pəncəsindən qurtula bilmədi. Onlardan biri 3 ay komada qaldıqdan sonra şəhidlik zirvəsinə ucaldı.

**“Dostumun sağ qalmasını istəyirdim ...”**

***- Müharibə insanları bir-birinə yaxınlaşdırır. Sən necə, döyüşlərdə özünə yaxın dost qazana bildinmi?***

- Əlbəttə. Müharibə mənə çox yaxın dostlar qazandırdı. Lakin elə qazandırdığı kimi də, tez bir zamanda əlimdən alırdı. Ən yaxın münasibətdə olduğum əsgər yoldaşım, Zaqataladan olan 20 yaşlı Alim Məhəmmədov idi. Oktyabrın 26-da qızğın döyüşlərdən sonra təxminən 30 nəfərə yaxın hərbçimiz ilə birgə dincəlmək üçün bir yer seçdik. Hər zaman bir yerdə döyüşməyimizə, bir yerdə dincəlməyimizə baxmayaraq, nədənsə, bu dəfə bir-birimizdən ayrı düşdük. Çox keçmədi ki, olduğumuz əraziyə top mərmisi düşdü. Elə həmin an özümü itirmiş halda Alimi səsləməyə başladım. Hər zaman səsimə səs verən döyüşçü dostum, bu dəfə mənə cavab vermirdi. Səssizlikdən narahat olub, dərhal onu axtarmağa başladım. Bir neçə addım irəliləmişdim ki, Alimin dəhşətli bir vəziyyətdə yerdə uzandığını, digər hərbçi yoldaşlarımızın onun ətrafında olduğunu gördüm. Onun ayağının bir hissəsi tamamilə yox idi. Alimə yaxınlaşıb, səsləsəm də, artıq heç kimi tanımırdı. Dostumun sağ qalmasını istəyirdim, lakin gördüklərim bunun əksini sübut edirdi və dostum şəhid oldu. Bu, məni həqiqətən də çox sarsıtmışdı. Yaşadığım hissləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Alimlə biri-birimizə söz vermişdik ki, müharibə bitəndən sonra onunla birlikdə sağ-salamat evə qalib kimi qayıdacağıq. Lakin təəssüf ki, Alim şəhid oldu və xəyallarımız yarımçıq, arzularımız isə ürəyimizdə qaldı. Mən Alimə və bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Döyüşlərdə yaralanan hərbçilərimizə isə tezliklə şəfa tapmalarını arzu edirəm.

***- Döyüşlərdə yaralanan əsgərlərimizi tibb məntəqəsinə necə çatdırırdınız?***

- Gördüklərimə baxmayaraq, bütün gücümü toplayıb hərbçi yoldaşlarımla yaralı əsgərlərimizə yadım etməyə çalışırdıq. Düşmənin tank əleyhinə olan toplardan atəş açması nəticəsində əsgər yoldaşlarımız şəhid olurdular. Yaralı əsgərlərimizi bir-bir çiynlərimizə alaraq, təxminən 4-5 kilometr geriyə təcili tibbi yardım maşınlarına aparırdıq. Hətta yolda tibb maşınına çatmamış şəhid olan hərbçilər də olurdu. Hadisə baş verdiyi yerdə şəhidlərimizin nəşinin qalmamasına çalışırdıq. Komandirimizin dediyi - “onları orada tərk etsək, ruhları bizi bağışlamayacaq” - sözləri heç vaxt xatirəmdən silinməyəcək. Bəzən növbəti gün həmin yerə qayıdaraq, şəhidlərimizin nəşini götürürdük.

***- Yaddaşından heç vaxt silinməyəcək Vətən müharibəsindən xatirə olaraq özün üçün nə saxlayırsan?***



- Müharibədən yadigar olaraq dostum Alimin mənə verdiyi gilizi saxlayırdım. Evə qayıtdıqdan sonra belə gilizi üzərimdə gəzdirirdim. Lakin hər dəfə ona baxanda Alimlə bağlı xatirələrim gözümün önündə canlanırdı. Bu isə mənə çox ağır təsir edirdi. Sanki üzərimdə böyük bir yük daşıyırdım. Buna görə də onu saxlamaq üçün anama verdim. Çünki mən Alimin verdiyi gilizi saxlamağı deyil, bir yerdə keçirdiyimiz çətin, lakin bir o qədər də qürurlu və şərəfli günlərimizi onunla birgə yad etməyi istəyirdim.

***- Qələbə xəbərini necə eşitdin?***

- Noyabrın 9-da təxminən axşam saat 10 radələrində qrupumuza qoşulmaq üçün maşınla Xocavənd istiqamətinə irəliləyirdik. Düşmənin bizi görməməsi üçün isə avtomobilin işıqlarını söndürmüşdük. Bir qədər irəlilədikdən sonra həm ön, həm də arxa tərəfdən maşınlarımızın top atəşinə məruz qaldığını gördük. Bu hadisə nəticəsində bir hərbçi yoldaşımız şəhid oldu. Müharibənin bitməsinə saatlar qalmış belə bir hadisə ilə rastlaşmağımız çox təsiredici idi. Həmin hadisədən bir neçə saat sonra isə müharibənin bitməsi ilə bağlı məlumat verildi. Bu xəbərə sevinsək də ürəyimdə bir kədər var idi. Çünki günlərdir çiyin-çiyinə vuruşduğumuz yoldaşlarımızın hamısı bizimlə birgə bu zəfəri qeyd edə bilmədilər. Onların anaları oğulsuz, ailələri başsız, övladları isə atasız qaldı.

***- Qalib ordunun, qalib əsgəri kimi evə qayıtmaq necə bir hissdir?***

- Bu, həqiqətən də çox qürurvericidir. İllərdir düşmən tapdağında olan torpaqların azad olunmasında əməyimin olması, xalqımızın sevincini görmək çox gözəl bir duyğudur. Evə qayıdanda döyüşdüyümüz yerlərdən keçirdik. Həmin yollara baxanda qarışıq hisslər yaşayırdım. Bir neçə gün əvvəl mühasirədə olduğumuz, minamyotların başımızın üzərindən keçdiyi bu yolları indi qalib kimi geri qayıdırdım. Düzünü desəm, böyük bir təntənə ilə rastlaşacağımı düşünmürdüm. Amma ailəmdən əlavə qohumlar, qonşular, hətta kənd sakinləri də məni qarşılamağa gəlmişdilər.

**“Hər gecə müharibəni sanki yenidən yaşayıram”**

***- Müharibədən qayıtdıqdan sonra səhhətində nə kimi problemlər yaranıb?***

- Tərxis olunandan sonra bir neçə gün həddindən artıq çox ağrılarım var idi. Düzdür, indi də ara-sıra ağrılar olur. Amma nisbətən vəziyyətim yaxşılığa doğru gedir. Əsasən, gecə saatlarında özümü narahat hiss edirəm. Hər gecə yatmağa hazırlaşanda döyüşlərdə gördüyüm hadisələr gözümün qarşısına gəlir. Yəni elə bir gün yoxdur ki, döyüş yoldaşlarım, şəhid hərbçilərimizin səslərini eşitməyim. Hər gecə müharibəni sanki yenidən yaşayıram. Bundan başqa eşitmə qabiliyyətimdə də zəiflik hiss edirəm. Bu da döyüşlər vaxtı baş verən güclü partlayışlardan sonra yaranıb. Həkimlər müalicə prosesindən sonra eşitmə qabiliyyətimin tam bərpa olunma ehtimalının az olduğunu deyirlər.

***- İstərdik ki, bir az da oxucularımıza voleybola olan marağının yaranmasından danışasan.***

- Voleybola marağım 5-ci sinifdən yaranıb. Hər zaman məndən böyük məktəblilərin voleybol oynamağına həsədlə baxıb, onlar kimi oynamağı arzulayırdım. Voleybol məşqlərinə yazılıb, bu istəyimi reallaşdırmaq istəyəndə isə atam icazə vermədi. O, dərslərimə yetərincə zaman ayıra bilməyəcəyimi düşünürdü. Amma illər keçsə də, uşaqlıq arzum ağlımdan çıxmırdı. Elə buna görə də, universitetə qəbul olandan sonra voleybol ilə məşğul olacağıma qəti qərar verdim. Düzünü desəm, voleybolda belə qısa bir müddətdə bu qədər irəli gedəcəyimi düşünmürdüm.

Yəni voleybol uşaqlıq sevgim olduğu üçün onunla həvəskar şəkildə məşğul olmağa başladım. Lakin zaman keçdikcə istedad və həvəs özünü büruzə verdi və mən birinci Liqada “İqtisadçı” komandasında çıxış etməyə başladım. Amma təəssüf ki, komanda o qədər də uğurlu nəticə göstərmədi. Daha sonra 2018-ci ildə “Ekspress Baku” komandasının şərəfini qorumağa başladım. 2019-cu ildə birinci liqanın final mərhələsində “Tale Ate” komandasına 3:2 hesabı ilə məğlub olduq. Bununla da Azərbaycan Birinci Liqasını ikinci pillədə başa vurduq. Daha sonra hərbi xidmətə yolladım. Hazırda isə pandemiya olduğundan hələ ki, məşqlər və yarışlar dayandırılıb. Pandemiya bitəndən sonra voleybol karyerama yenidən davam etmək niyyətindəyəm. Həmçinin qeyd edim ki, mən şirkətlərin birində mühasib kimi də işləyirəm. Çalışacağam ki, hər iki sevdiyim işi eyni zamanda icra edim.

***- İdmançı olmağın sənə döyüşlərdə nə kimi üstünlük qazandırdı?***

- Qeyd edim ki, yarışlara hazırlıq vaxtı hər zaman özümü psixoloji olaraq qələbəyə hazırlayırdım. Bu amil mənə döyüşlərdə də çox böyük kömək oldu. Döyüşlərin ilk günlərindən qələbə qazanacağımıza və sağ-salamat evə qayıdacağıma özümü psixoloji olaraq hazırlamışdım. Buna görə də, çalışırdım ki, döyüş yoldaşlarımı da sağ-salamat evə qayıdacaqlarına inandıram.

Hərbçi yoldaşlarım voleybolla məşğul olduğumu bilirdilər. Müharibə bitdikdən sonra Xocavənddə idman zalına getdik, basketbol topu tapıb hərbçi yoldaşlarımızla oynadıq. Orada məktəblərin birində isə piano tapıb “sarı gəlini” və milli musiqilərimizi uşaqlar üçün ifa etdim.

*Türkay Niftəliyeva*

# İkinci Qarabağ müharibəsində idman akademiyasının vətənpərvərlik nümunəsi



*Dilqəm Quliyev, pedaqogika üzrə elmlər doktoru, professor*

2020-ci il Azərbaycan tarixində 44 günlük İkinci Qarabağ müharibəsi və 3 gün davam edən Tovuz döyüşləri ilə daha çox yadda qaldı.

27 sentyabr 2020-ci il ölkəmizin tarixinə qızıl hərflərlə daxil oldu. Otuz ilə yaxındır davam edən Qarabağ probleminin həlli istiqamətində Azərbaycanın Prezidenti, Ali Baş Komandan, cənab İlham Əliyevin başçılığı altında ordumuz tərəfindən qətiyyətli addım atıldı.

Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də törətdikləri növbəti hərbi təxribatın qarşısını qətiyyətlə alan Azərbaycan Ordusu işğal olunmuş Azərbaycan torpaqlarını azad etmişdir. Sentyabr ayının 27-dən etibarən Milli Ordu hissələrimiz 30 ildən artıq hər bir azərbaycanlının sağalmaz yarasına çevrilmiş Qarabağ münaqişəsinin ön cəbhələrinə qəhrəmancasına atılaraq düşmən mövqelərini məhv etdi. Ordumuzun qısa müddətdə əldə etdiyi ardıcıl qələbələr xalqımızın döyüş ruhunun daha da yüksəlməsinə səbəb olmaqla, xalqımızı bir yumruq kimi birləşərək düşmənlə istər ön, istərsə də arxa cəbhədə mübarizəyə köklədi.

## Akademiyanın 13 tələbəsi İkinci Qarabağ müharibəsində qəhrəmancasına şəhid olub

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının professor-müəllim və tələbələri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində, idmançı-tələbələrə vətəndaşlıq şüurunun aşılanması ilə yanaşı onların Vətənə sədaqət ruhunda tərbiyəsi üçün istər dərslərdə, istərsə də dərsdənkənar idman tədbirlərində bütün imkanlardan istifadə edirlər. Bu gün gənclərin vətənpərvərlik tərbiyəsi xüsusilə aktuallıq kəsb edir. Çünki Azərbaycan Ordusu əkshəmlə əməliyyatına başlayaraq işğal olunmuş Azərbaycan torpaqlarını uğurla azad etmişdir. Buna görə də tələbə gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi professor-müəllim və tələbələrin başlıca vəzifəsinə çevrilmişdir.

Azərbaycan xalqının milli suverenliyi təmin edildiyi vaxtdan indiyədək keçdiyimiz ağrılı-acılı yolda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbələrinin vətənpərvərlik təşəbbüsünü təqdirəlayiq hesab etmək olar. Akademiyada aparılan ictimai-faydalı işlər nəticə etibarilə tələbələrdə zəhmətsevərlik, vətənpərvərlik və həyatda öz yerini tutmaq kimi keyfiyyətlər tərbiyə edir.

Mənfur düşmənlə ölüm-dirim savaşında I və II Qarabağ müharibəsində Vətən uğrunda qəhrəmancasına şəhid olmuş Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbə və məzunlardan İlqar İsmayılov, Əliyar Əliyev (Azərbaycanın Milli Qəhrəmanları), Afaq Həsənov, Arif Məmmədov, Mais Hacıyev, Eldar Əsədov, Səməd Fərzəliyev, Rafiq İsmayılov, Məhərrəm Cəbrayılov, Ərəstun Bəylərov, Mirzə Abbasov, Şakir Abbasov, Eldost Hüseynov, Fərid Məmmədov, Telman Ələkbərov, Muxtar Qasımlı, İqbal Aslanlı, Ürfan Orucov, Rəşad Babayev, Vüqar Vəliyev, Siyavuş Muradov, Pərvin Əlizadə, Ramil Yusifzadə, Nəriman Əlizadə, Ramid Əliyev və başqaları kimi igid və cəsur tələbə və məzunlarımızın şəxsi nümunəsi bizə əsas verir deyək ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Bu xalq öz vətənini göz bəbəyi kimi qorumağa hazır olan mətin gənclər yetirmişdir. Erməni qəsbkarlarına qarşı ölüm-dirim savaşında həlak olmuş qəhrəmanlarımızın ibrətamiz həyatı, şəxsi nümunələrinin ön plana keçməsi hərbi vətənpərvərlik tərbiyəsi işində mühüm rol oynayır.

Azərbaycanın yaradıcı gənclərinin əsas ali təhsil ocaqlarından biri olan Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) idmançı gəncləri də bu dövrdə fəal iştirak etdilər. ADBTİA-nın əməkdaşları, tələbələri və məzunlarından 50-dən çox insan İkinci Qarabağ Vətən müharibəsində düşmənə qarşı üz-üzə vuruşdu, dövlətimizin ərazi bütövlüyünün bərpası üçün canını, qanını əsirgəmədi. Onlardan 13 nəfəri 44 günlük İkinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı uğrunda qəhrəmancasına şəhid olub, 11 nəfər yaralanıb və müharibə əlili olublar. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının tələbə və məzunları İkinci Qarabağ müharibəsində misilsiz rəşadət göstərdilər.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının 29 dekabr 2020-ci il tarixli Elmi Şurasının qərarına əsasən İkinci Qarabağ müharibəsində şəhid olmuş 13 nəfər məzunun - Məmmədov Fərid Vəlhad oğlu, Ələkbərov Telman İnqilab oğlu, Babayev Rəşad Ağabəy oğlu, Əlizadə Nəriman Nurəhməd oğlu, Astanlı İqbal İlqar oğlu, Vəliyev Vüqar Emin oğlu, Qasımlı Muxtar Əli oğlu, Orucov Ürfan Firdovsi oğlu, Əlizadə Pərvin Vüqar oğlu, Yusifzadə Ramil Adəm oğlu, Muradov Siyavuş Akif oğlu, Hüseynov Eldost Asəf oğlu, Əliyev Ramid Kamil oğlunun adlarına fəxri təqaüd təsis olunmuşdur. Şəhid məzunların adları akademiyanın tədris otaqlarına verilmiş, girişdə lövhələr vurulmuş və guşələr yaradılmışdır.



## Vətən müharibəsi iştirakçıları keçdikləri şərəfli döyüş yolundan danışırlar

ADBTİA-nın tələbələri də arxa cəbhə əsgərləri kimi öz sahələrində ordumuza, xalqımıza dəstək olmaq üçün müxtəlif tədbirlər keçirdilər, bu savaşa öz töhfələrini verdilər.



Akademiyada onlayn keçirilən görüşlərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun döyüş meydanında qazandığı tarixi qələbədən, xalqımızın birliyi və şücaətindən bəhs edilir, Vətən müharibəsi iştirakçıları keçdikləri şərəfli döyüş yolundan danışılır, həmçinin tədbir iştirakçıları maraqlandıran suallar cavablandırılırdı. Görüşlərin keçirilməsində məqsəd Vətən müharibəsində qazanılan tarixi qələbə barədə tələbələri məlumatlandırmaq, qəhrəmanlarımızı, şəhidləri böyüməkdə olan gənc nəslə yaxından tanıtmaq, onlarda vətənpərvərlik hissini aşılamaqdan ibarətdir. Ali Baş Komandana, Azərbaycan ordusuna sonsuz inamını göstərmək, əsgərlərimizə və xalqımıza ruh yüksəkliyi bəxş etmək üçün akademiyanın tələbələri 44 günlük Vətən müharibəsi dövründə pandemiya və karantin rejiminin məhdudiyyətlərinə baxmayaraq, böyük ruh yüksəkliyi ilə vətənpərvərlik nümunəsi göstərdilər.

İlk gündən hamı bacardığı qədər əsgərlərimizə yardım etməyə can atırdı. Bu həlledici günlərdə ADBTİA da ön cəbhəyə dəstək oldu. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası 50 min manat məbləğində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna vəsait köçürmüşdür.

Ordumuza dəstək məqsədilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən oktyabrın 5-də ordu qərargahına yüksək keçidli avtomobillər kateqoriyasına aid, texniki imkanları hərbi nəqliyyat vasitələrinə uyğun olan "Mitsubishi Pick-up L200" avtomobili təqdim olunub. Həmçinin akademiyanın, inzibati heyət və tələbələri döyüş bölgəsindəki əsgərlərimizə dəstək məqsədilə ürək sözlərini əks etdirən əsgərə məktublar yazaraq, akademiya tərəfindən hazırlanan hədiyyə paketlərinə əlavə edərək cəbhə bölgəsinə göndərirdilər.




# Şəhid Həmid Abbasbəylinin xatirəsinə şahmat turniri keçirilib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ), Xətai rayon Gənclər və İdman İdarəsi və "İDEA" şahmat klubunun birgə təşkilatçılığı ilə Vətən müharibəsi şəhidi, baş leytenant Həmid Abbasbəylinin xatirəsinə onlayn şahmat turniri keçirilib. İsveçrə sistemi üzrə təşkil edilən yarışda Həsən Orucov qalib gəlib. Aytac Məmmədova yarışı ikinci, Allahverdi Həmidov isə üçüncü yerdə başa vurublar.

Şəhid Həmid Abbasbəyli "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" medalları və "Qarabağ" ordeni ilə təltif olunub.

# MMA döyüşçümüz Avropa çempionuna nokautla qalib gəldi

Aprelin 11-də Azərbaycanın və "Qəbələ" İdman Klubunun MMA döyüşçüsü Nəriman Abbasov növbəti görüşünü keçirib. 27 yaşlı idmançı Rusiyanın paytaxtı Moskvada təşkil olunan "AMC Fight Night 100" döyüş gecəsində Rusiya təmsilçisi, sərbəst güləş üzrə yeniyetmələr arasında Avropa çempionu Şamil Amirovla üz-üzə gəlib.



İlk iki raundda Ş.Amirov müqavimət göstərsə də, üçüncü raundda zərbələr qarşısında duruş gətirə bilməyib. O, döyüşü davam etdirmək istəməyib. Beləliklə, Nəriman Abbasov görüşü texniki nokautla başa vurub.

Bununla da yüngül çəki dərəcəsində (70,3 kq) çempion kəmərinin sahibi olan Azərbaycan təmsilçisi titulunu qoruyub. "Lujniki"dəki görüş N.Abbasovun 29-cu sınağı olub. O, ümumilikdə 26-cı və ardıcıl 11-ci qələbəsini qazanıb.

Əslində bu görüş aprelin 10-da gerçəkləşməli idi. Lakin həmin vaxt döyüş gecəsi çoxsaylı MMA azarkeşlərinin pandemiya şərtlərini pozaraq zalı tam doldurmaları səbəbindən təxirə salınıb.

Xatırladaq ki, Nəriman Abbasov daha əvvəl 2020-ci ilin sentyabrında Rusiyanın daha bir təmsilçisi Mixail Qoqitidzeni məğlubiyyətə uğradıb.

# Yeniyetmə şpaqaçılarımız dünya birinciliyində çıxış ediblər

Misirin paytaxtı Qahirə şəhərində keçirilən dünya birinciliyində yeniyetmə şpaqaçıların şəxsi yarışında qaliblər müəyyənləşib.

Təmsilçilərimizdən qrup mərhələsini iki qələbə ilə bitirən Nazilə Rəhimova və Azərin İdriszadə pley-offa yüksəlməyi bacarıb. N.Rəhimova pley-offda özbəkistanlı şpaqaçı Şaxzoda Egamberdiyeva (11:15), Azərin İdriszadə isə yunan idmançı Andriana Teodoropoluya (10:15) uduzub.

Qrup mərhələsini qələbəsiz başa vuran Alfiya Abdinova və hesabında bir qələbəsi olan Fuad Qurbanov isə mübarizəni erkən dayandırıb.

# Paytaxtımızın ev sahibliyi edəcəyi Qran-Prinin yeri dəyişdirildi

Beynəlxalq Görmə Məhdudiyyətli İdmançılar Assosiasiyası (IBSA) Bakıda keçirilməsi nəzərdə tutulan paracüdo üzrə Qran-Prinin yerini dəyişib. Tokio 2020 Yay Paralimpiya Oyunları öncəsi sonuncu təsnifat yarışına Antalya ev sahibliyi edəcək. Buna koronavirus pandemiyası səbəb olub.

# Azərbaycan Premyer Liqası: “Qarabağ” liderliyini bir qədər də möhkəmləndirdi

*Futbol üzrə Azərbaycan Premyer Liqasında XXII turun oyunları keçirilib. Günün ilk oyununda “Neftçi” səfərdə “Qəbələ”nin qonağı olub. Qəbələ şəhər stadionundakı matç 2:2 hesabı ilə yekunlaşıb. İlk hissədə qapılara qol vurulmayıb. Görüşdə əsas hadisələr ikinci yarıda baş verib. 54-cü dəqiqədə meydan sahiblərinin heyətində Ceyms Adeniyi baxımlı qolla hesabı açıb. 62-ci dəqiqədə paytaxt təmsilçisinin hücumçusu Mirabdulla Abbasov hesabı bərabərləşdirib. Bundan 5 dəqiqə sonra “Qırmızı-qaralar” yenidən önə keçib. Yurqen Qoxa topu qapıdan keçirib. Flaqmanın kapitanı Emin Mahmudov 71-ci dəqiqədə penaltidən fərqlənməklə hesaba yenidən tarazlıq gətirib.*

Günün ikinci matçında “Sabah” “Səbail”i qəbul edib. “Bank Respublika Arena”dakı qarşılaşmada qol vurulmayıb. Görüş meydan sahiblərinin üstünlüyü şəraitində keçib. 90+2-ci dəqiqədə “Səbail”in futbolçusu Məqsəd İsayev ikinci sarı vərəqəni alaraq meydandan qovulub. 90+3-cü dəqiqədə “Səbail”in hücumçusu Rauf Əliyev rəqib müdafiəçisi Bəhlul Musatafazadə ilə toqquşub. Nəticədə hər iki oyunçu zədə alıb.



Turun ikinci oyun günündə daha iki qarşılaşma oynanılıb. İlk olaraq meydan sahiblərinin yarımmüdafiəçisi Abdullah Zubir açıb. “Köhlən atlar” fasilədən dərhal sonra - 46-cı dəqiqədə ikinci qolu vurublar. Bu dəfə qonaqların müdafiəçisi Cəmaləddin Xocaniyazov topu öz qapısından keçirib.

meydana qəsəbə təmsilçiləri çıxıblar. Turnir cədvəlinin 3-cü pilləsində qərarlaşan “Zirə” autsayder “Keşlə”ni sınağa çəkib. Görüş qolsuz heç-heçə ilə başa çatıb.

Turun son matçında “Qarabağ” “Sumqayıt”ı qəbul edib. “Azersun Arena”dakı qarşılaşma Ağdam təmsilçisinin 4:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Görüşdə hesabı ilk hissənin əsas vaxtına əlavə olunmuş 1-ci dəqiqədə naqların müdafiəçisi Cəmaləddin Xocaniyazov topu öz qapısından keçirib. 59-cu dəqiqədə Əli Qurbani hesab arasındakı fərqi minimuma endirib. 71-ci dəqiqədə Zubir dubl edib. 7 dəqiqə sonra isə Filip Ozobiç çətin vəziyyətdən qapını dəqiq nişan alıb. Xorvatiyalı yarımmüdafiəçi eyni zamanda oyunun yekun nəticəsini müəyyənləşdirib.

Bu qələbədən sonra xallarını 46-ya çatdıran “Qarabağ” zirvədəki yerini bir qədər də möhkəmləndirib. Artıq bu komandanı ikinci sıradakı “Neftçi”dən 3 xal ayırır. Üçüncü pillədə isə 32 xalla “Zirə” klubu qərarlaşıb. “Sumqayıt” 29 xalla 4-cü, “Qəbələ” isə 24 xalla beşincidir. Son turda heç-heçə edən “Səbail” və “Sabah” komandaları isə xallarını 20-yə çatdıraraq, 6-7-ci yerləri bölüşürlər. Aktivində 19 xalı olan “Keşlə” klubu isə turnir cədvəlinin sonuncu pilləsində yer alıb.

Yubiley

## Ömrünü idmana həsr edən veteran futbolçunun 70 yaşı tamam olur



Azərbaycanın veteran futbolçusu, həyatının çox hissəsini futbola həsr etmiş Fazil Əliyevin 70 yaşı tamam olur. 1951-ci il aprelin 25-də Ağcabədi rayonunun Hindarx kəndində anadan olan Fazil müəllimin keçdiyi ömür yolu kifayət qədər zəngindir. Futbolla məşğul olmağa orta məktəb illərində başlayan veteran futbolçu doğma komandasının heyətində İmişlidə keçirilən gənclərin Azərbaycan birinciliyində iştirak edib və gözəl oyunu ilə məşqçilərin diqqətini çəkib. İstedadlı futbolçu bir müddət sonra “Neftçi”nin əvəzedici komandasının idman şərəfini qoruyub. 1972-ci ildə Ağdamın “Qarabağ”, 2 il sonra isə “Şəmkir” klubunun heyətində “Qızıl sünbül” kubokuna sahib olub. Moskva, Kişinyov və Daşkənddə təşkil olunan yarışlarda dəfələrlə iştirak edib. Əldə etdiyi nəticələrə görə SSRİ idman ustası fəxri adına layiq görülüb.

Fazil Əliyev 1975-1978-ci illərdə Azərbaycan yığmasında oynayıb. Ağcabədinin “Aran” klubunun yaranmasında müstəsna xidmətləri olan Fazil müəllim burada baş məşqçi vəzifəsini yerinə yetirib. Bundan başqa, o, 2004-2007-ci illərdə Ağcabədinin “Ağ-göl” komandasına rəhbərlik edib. Təcrübəli mütəxəssis 2009-cu ildən 2017-ci ilə qədər AFFA-da hakim-inspektor vəzifəsində çalışıb. Hazırda təqaüddədir.

Veteran futbolçunu 70 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona uzun ömür, cansağlığı və işlərində uğurlar arzulayırıq.

## Avropa çempionatına yollanacaq heyət müəyyənləşdi

Aprelin 16-18-də Portuqaliyanın paytaxtı Lissabonda cüdo üzrə Avropa çempionatı təşkil olunacaq. Bugünə qədər qitənin 45 ölkəsindən 378 (226 kişi, 152 qadın) cüdoçu yarışda iştirakını təsdiqləyib. Çempionatda Azərbaycan cüdoçuları da qüvvələrini sınayacaqlar. Komandamız yarışda




10 (9 kişi, 1 qadın) idmançı ilə təmsil olunacaq. Belə ki, Lissabonda kişilərin mübarizəsində Davud Məmmədsoy, Kəramət Hüseynov (hər ikisi - 60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (hər ikisi -66 kq), Murad Fətiyev, Hidayət Heydərov (hər ikisi -81 kq), Elmar Qasımov, Zelim Kotsoyev (hər ikisi -100 kq), Uşangi Kokauri (+100 kq), qadınların yarışında isə İrina Kindzerskayanın (+78 kq) çıxış edəcəyi gözlənilir.

Tokio-2020-yə lisenziyanı təmin edən yığmamızın əsas üzvlərindən Rüstəm Orucov (-73 kq) və Məmmədəli Mehdiyev (-90 kq) isə Avropa çempionatına yollanacaq heyətə daxil edilməyiblər.

## “Qətər-2022”də yeni üsuldan istifadə olunacaq

FİFA 2022-ci ildə Qətərdə təşkil olunacaq futbol üzrə dünya çempionatında oyundankənar vəziyyətin aşkarlanması ilə bağlı yeni üsuldan istifadə edəcək. Bu barədə FİFA-nın futbolun qlobal inkişafı departamentinin rəhbəri Arsen Venger açıqlama verib.

A.Vengerin bildirib ki, ofsaydın avtomatik sübut edilməsi sistemi 2022-ci ilədək hazır olacaq. Yeni texnologiyanın tətbiq olunmasında israr edirəm, bunun sayəsində ofsayd epizodunun siqnalı dərhal xətt hakiminə çatacaq.

Qeyd edək ki, dünya çempionatı gələn il noyabrın 21-dən dekabrın 18-dək keçiriləcək.

## Komandamız qrup liderliyini təmin etdi

Futzal üzrə Azərbaycan milli komandası Avropa çempionatının seçmə mərhələsi çərçivəsində növbəti oyununu keçirib. Millimiz Levice şəhərindəki eyniadlı idman zalında Slovakiya yığması ilə qarşılaşıb.

Gərgin idman mübarizəsi şəraitində keçən görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Millimizn heyətində Everton Cardoso fərqlənib.

Xallarının sayını 13-ə yüksəldən millimizin qrupu ilk pilədə başa vuracağı qətiləşib.

Millimiz seçmə mərhələnin son oyununu sabah keçirəcək. Komandamız Bakı İdman Sarayında Yunanıstan yığması ilə üz-üzə gələcək.

Qeyd edək ki, ötən tur Azərbaycan millisi tarixində 6-cı dəfə Avropa çempionatının final mərhələsinə vəsiqəni təmin edib.



## Qrossmeysterimiz üçün yeni sınaq

Aprelin 24-də “Champions Chess Tour” onlayn şahmat seriyasının beşinci mərhələsi start götürəcək. 16 qrossmeysterin mübarizə aparacağı turnirdə Azərbaycan təmsilçisi Teymur Rəcəbov da iştirak edəcək. Ötən 4 mərhələnin yekunlarına görə şahmatçımız 108 xalla 3-cü yerdə qərarlaşıb. Turnirdə şahmatçımızla yanaşı, hazırkı dünya çempionu, norveçli Maqnus Karlsen, amerikalı şahmatçılar Uesli So, Hikaru Nakamura, Niderland təmsilçisi Aniş Qiri, rusiyalı Yan Nepomnyaşi, fransalı Maksim Vaşye-Laqrav, ermənistanlı Levon Aronyan iştirak edəcəklər. Yarışın digər iştirakçılarının adı isə bir müddət sonra müəyyənləşəcək.

Turnirdə seriyanın dördüncü mərhələsində iştirak etmiş Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov da çıxış edə bilər.

Xatırladaq ki, Teymur Rəcəbov “Champions Chess Tour” seriyası çərçivəsində keçirilən ikinci - “Airthings Masters” turnirinin qalibi olub, seriyanın üçüncü mərhələsində - “Opera Euro Rapid” turnirində isə üçüncü yeri tutub.

## Şahmat üzrə “Zəfər kuboku” yarışı keçiriləcək

Aprelin 14-də 18 yaşadək Bakı və Sumqayıt şahmatçıları arasında onlayn “Zəfər kuboku” yarışı keçiriləcək. Turnir www.chess.com şahmat portalı üzərindən təşkil olunacaq. Yarış nəzarət vaxtı 3 dəqiqə və hər gedişə 2 saniyə



olmaqla, İsveçrə sistemi ilə 9 turdan ibarət olacaq. Yarışda oğlanlar və qızlar arasında ilk 3 yeri tutan şahmatçılara Bakı və Sumqayıt Şəhər Gənclər və İdman Baş idarələri tərəfindən hədiyyələr, medallar və diplomlar təqdim ediləcək. Əlavə olaraq yarışın qalibi kubokla mükafatlandırılacaq.

## Əbu-Dabi turnirində üç medal

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə ciu-citsu üzrə “Abu Dhabi World Professional Jiu Jitsu Championship 2021” turniri keçirilib. Ölkəmizi yarışda Mehman Fətəliyev, Ayaz Süleymanov və Ruslan Nağıyev təmsil ediblər. Hər üç idmançımız Vətənə medalla qayıdıblar. Yarışda bütün rəqiblərini məğlub edən M.Fətəliyev fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. A.Süleymanov və R.Nağıyev isə finalda məğlub olaraq gümüş medalla kifayətləniblər.

## Boksçularımız bu gün dünya birinciliyində mübarizəyə başlayırlar

Bu gün Polşanın Keltse şəhərində boks üzrə gənclər arasında dünya birinciliyinə start veriləcək. 11 gün davam edəcək mundialda Azərbaycan boksçuları da qüvvələrini sınayacaqlar.




Komandamız yarışda baş məşqçi Əsgər Eyvazov, məşqçilər Əli İsmayılov və Şahin İmranovun rəhbərliyi altında 9 idmançı ilə təmsil olunacaq. Medallar uğrunda Nicat Hüseynov (49 kq), Əli Zamanov (52 kq), Əzrək Bəbirov (56 kq), Cəlal Qurbanov (60 kq), Elmir Novruzov (64 kq), Samir Nəsirov (69 kq), Cəfər Heydərli (75 kq), Murad Allahverdiyev (81 kq) və Əsəd Baxışov (91 kq) gücünü yoxlayacaq. Boksçular yarış öncəsi koronavirus testindən keçib və bütün nəticələr neqativ olub.

Dünya çempionatında 66 ölkədən 487 (160 qız, 327 oğlan) boksçunun iştirakı gözlənilir. Bu, 3 il əvvəl baş tutan analoji yarışla müqayisədə daha yüksək rəqəmdir. 66 iştirakçı ölkədən Bəhreyn, Banqladeş, Mərkəzi Afrika Respublikası, Konqo DR, İslandiya, Sent-Lüsiya, Syerre-Leone və Esvatini yarışda debüt edəcəklər.

Qeyd edək ki, aprelin 22-də qızların yarışında, ertəsi gün isə oğlanların mübarizəsində final görüşləri təşkil olunacaq.

# FUTBOL

# Avropadan transfer xəbərləri




## İspaniya

“Barselona” hücumçusu Osman Dembeleni komandada saxlamaq niyyətindədir. Kataloniya təmsilçisi 23 yaşlı oyunçu ilə müqaviləni 2025-ci ilin iyununa qədər uzatmağı planlaşdırır. Əgər fransalı futbolçu həmin müqaviləni imzalamasa, bu yay “Barselona” Osmanı satmalı olacaq.

Qeyd edək ki, Dembele bu mövsüm 36 oyunda 10 qol və 4 məhsuldar ötürmə verib. Onun klubu ilə müqaviləsi 2022-ci ilin yayında başa çatacaq.

“Barselona” bu mövsüm parlaq oyun nümayiş etdirən yarımmüdafiəçilər Pedri və İlayş Moriba və müdafiəçi Oskar Mingezanı heyətdə saxlamaq istəyir.

Kataloniya klubunun 400 milyon avroluq təzminat bəndinin qorunması ilə Pedriyə 4 və ya 5 illik müqavilə təklif edəcəyi bildirilib.

## İngiltərə

“Mançester Siti” futbolçusu Kevin De Brüyne ilə 2023-cü ilin yayına qədər olan müqaviləni 2025-ci ilin yayına qədər uzadıb. Bu barədə klubun rəsmi saytı məlumat yayıb. “Mançester Siti” Kevin de Brüynedən sonra daha iki futbolçusu ilə müqavilənin müddətini uzatmaq istəyir. İngiltərə təmsilçisi yarımmüdafiəçilər Rahim Sterlinq və Fil Fodenlə bu mövsümün sonuna kimi yeni müqavilə imzalamağı planlaşdırır. Foden ilə danışıqların Sterlinqlə müqayisədə daha asan həll ediləcəyi gözlənilir. Qeyd edək ki, Sterlinqlə müqavilə 2023-cü il, Fodenlə 2024-cü ilin yayında başa çatacaq.

* * *

“Mançester Yunayted” futbolçusu Xuan Mata ilə müqaviləni yeniləməyə hazırlaşır. 32 yaşlı yarımmüdafiəçi ilə 1 illik yeni razılıq əldə etmək istəyir. Klubun əsas hədəfi isə müqavilədən sonra yayda ispaniyalı oyunçunu uyğun qiymətə satmaqdır. Premyer Liqa təmsilçisi futbolçuya görə rəqiblərindən ən azı 5 milyon avro tələb edə bilər.

Qeyd edək ki, Mata bu mövsüm bütün turnirlərdə 12 matçda 2 qol vurub və 3 qolun ötürməsini verib.

“Mançester Yunayted” qapıçısı David De Xeanı yayda icarəyə verəcək. Hazırda əsas heyətdəki yerini itirən ispaniyalı qapıçı ona daha çox ehtiyac olan klublardan təklif gözləyir. Lakin hələ ki, heç bir klub De Xea barədə kluba təklif göndərməyib.

Qeyd edək ki, 2011-ci ildən “Mançester Yunayted”də çıxış edən 30 yaşlı qapıçı bu mövsüm Premyer Liqada 24 oyuna çıxıb və 29 qol buraxıb.



“Mançester Yunayted” “Yuventus”un yarımmüdafiəçisi Deyan Kulusevskini İngiltərəyə gətirməyi planlaşdırır. 20 yaşlı futbolçu qitənin aparıcı klublarının diqqətində olsa da, baş məşqçi Sulşer isveçli futbolçu ilə yaxından maraqlanır. Lakin “Yuventus” Deyanı heç bir kluba vermək fikrində deyil. Bu barədə klubun idman direktoru Fabio Paratiçi məlumat verib.

* * *

İngiltərənin “Liverpul” klubunun futbolçusu Nəbi Keytanın yay transfer dövründə komandasını dəyişəcəyi barədə xəbərlər yayılıb. Qvineyalı yarımmüdafiəçi start heyətində yer almadığı üçün klubu tərk etmək niyyətindədir. “Liverpul” da bu satışdan normal məbləğ əldə etmək istəyir. Premyer Liqa klubu “Lester” Keytanı transfer etmək üçün qarşı tərəfin razılığını gözləyir.

* * *

“Çelsi”nin futbolçusu Jorjinyo İtaliyaya qayıda bilər. Futbolçunun agenti Joau Santuş bildirib ki, Jorjinyo “Napoli”, “Yuventus”, “Milan” və “İnter”in maraq dairəsinə düşüb. Hazırda transfer qiyməti 50 milyon avro olan futbolçu ilə “Çelsi” arasında qiyabi danışıqlar aparılır. Tərəflər ortaq məxrəcə gələrsə, Jorjinyo daha iki il “zadəganlar”a xidmət edə bilər.

## İtaliya

“Milan”ın futbolçusu Hakan Çalhanoğlu İngiltərənin nəhəng klublarının maraq dairəsinə düşüb. “Arsenal” və “Çelsi” 27 yaşlı yarımmüdafiəçini yayda heyətində görmək üçün indidən mübarizəyə hazırlaşır. “Milan” isə müqaviləsi mövsümün sonunda başa çatacaq Çalhanoğlunu əldən vermək istəmir. “Milan” türkiyəli oyunçuya həftəlik 66 min sterliq maaş təklif etsə də, Hakan 82 min sterlinq tələb edir.

* * *

Gürcüstan millisinin və Rusiya “Rubin”inin futbolçusu Xviça Kvaratsxeliya “Milan”ın diqqətini çəkib. 20 yaşlı yarımmüdafiəçinin agentinin yaxın günlərdə Milanda klub rəsmiləri ilə görüşü planlaşdırılıb. “Milan”la yanaşı, “Yuventus”, “Napoli”, “Bavariya” və “Borussiya” (Dortmund) komandaları da onunla yaxından maraqlanır.

Qeyd edək ki, “Rubin”lə 2024-cü ilədək müqaviləsi olan Kvaratsxeliyanın transfer qiyməti 10 milyon avro təşkil edir.

* * *

“İnter”in hücumçusu Romelu Lukaku çıxışını yenidən “Çelsi”də davam etdirə bilər. “Zadəganlar” yayda müqavilə üçün Milan təmsilçisinə təklif göndərəcək. Belçikalı oyunçuya göndərilən təklif 100 milyon avrodan bir qədər artıq olacaq. Qeyd edək ki, Lukaku 2011-2014-cü illərdə “Çelsi”də oynayıb.

* * *

“Yuventus” və “Milan” yay transfer pəncərəsində futbolçu mübadiləsi etməklə diqqət çəkib. Belə ki, “Milan” Turin təmsilçisindən 26 yaşlı hücumçu Federiko Bernardeskini almaq istəyir. Klub bu keçidin qarşılığında “qoca sinyora”ya 26 yaşlı müdafiəçisi Alessio Romanyolini verə bilər. Hər iki futbolçunun öz klubları ilə 2022-ci ilin yayınadək müqaviləsi qüvvədədir.

Qeyd edək ki, Bernardeski “Yuventus”a 2017-ci ildə “Fiorentina”dan transfer olunub. Romanyoli isə “Milan”a 2015-ci ildə “Roma”dan keçib.

* * *

“Napoli”nin yarımmüdafiəçisi Tyemue Bakayoko klubu tərk etmək istəyir. Müqavilə əsasında “Çelsi”yə məxsus olan futbolçu karyerasını London klubunda davam etdirmək fikrindədir. Lakin Bakayoko üçün Fransanın iki klubu - PSJ və “Lion” hələ ötən mövsümdən etibarən mübarizə aparırlar.

## Fransa

PSJ Leonardo Paradeslə yayda vidalaşa bilər. Baş məşqçi Maurisio Poçettino 26 yaşlı yarımmüdafiəçini komandanın əsas heyətinə layiq görmür. Bu səbəbdən Paris təmsilçisi argentinalı oyunçunu almaq istədiyi futbolçuların müqaviləsinə də daxil edə bilər.

Qeyd edək ki, Parades PSJ-yə 2019-cu ildə “Zenit”dən keçib. O, bu mövsüm 23 matçda 2 qolun ötürməsini edib.

# Dünya idmanı



## “Sakramento Kinqs” klubu məvacibləri bitkoinlə ödəyəcək

Dünya iqtisadiyyatı inkişaf etdikcə, maliyyə sektorunda müəyyən dəyişikliklər baş verir. Artıq kağız pullar öz yerini virtual valyutaya verir. Bu proses idman sektoruna da təsir edir. Rəqəmsal valyuta artıq bütün dünyada kütləviləşməyə başlayıb. Dünyanın bəzi aparıcı şirkətləri maliyyə əməliyyatlarını məhz bitkoinlə həyata keçirir və yaxud bu haqda planlar qurur. Reallıq onu göstərir ki, gələcəkdə böyük idman klubları da bu vasitədən yararlanacaq. Artıq bu istiqamətdə ilk addımı atan komandalar da var. Onlardan biri MBA-da çıxış edən “Sakramento Kinqs”dir. Amerika mətbuatının yazdığına görə, Kaliforniya klubu virtual valyuta ilə basketbolçulara məvacib ödəyən ilk idman klubu kimi tarixə düşə bilər. “Sakramento Kinqs”in sahibi Vivek Ranadive açıqlamasında da personal da daxil olmaqla, klubun bütün üzvlərinə maaşların bitkoinlə ödəniləcəyini bildirib. Lakin funksioner yeniliyin nə vaxt tətbiq olunacağı barədə heç nə deməyib.




Xatırladaq ki, Kaliforniya klubu 2014-cü ildən bitkoindən istifadə etməyə başlayıb. Klub hətta məhdud sayda bilet satışlarını da virtual valyuta ilə həyata keçirib. 2019-cu ildən azarkeşlər arasında keçirilən şou xarakterli müsabiqələrdə belə uduşlar bitkoinlə ödənilib. Yeri gəlmişkən, bitkoindən Avropanın futbol klubları da yararlanmaq fikrindədir. Hətta Kiyev “Dinamo”su da bu valyutadan istifadə etməyə hazırlaşır.

## olimpnews.az - sizin saytınız




## Qrizmanndan qeyri-adi “het-trik”

“Barselona” klubunun hücumçusu Antuan Qrizmann üçüncü dəfə ata olub. Bu barədə fransalı hücumçu özünün “Tvitter” hesabından paylaşım edib.



Dünya çempionunun Alba adlı qızı dünyaya gəlib. Maraqlısı isə bütün uşaqlarının eyni gündə, 8 apreldə dünyaya gəlməsidir. Albanın böyük bacısı Mia və qardaşı Amaro ilə eyni gündə anadan olması diqqət çəkib. 30 yaşlı oyunçunun böyük qızı 8 aprel 2016-cı ildə, Amaro oğlu isə 8 aprel 2019-cu ildə anadan olub.

## 8 aylıq hamilə olan qadın idmançı çempion oldu





Nigeriyalı qadın döyüşçü Eminat Aydris səkkiz aylıq hamilə ikən taekvondo turnirində qızıl medal qazanıb. 26 yaşlı idmançı milli idman festivalında qalib gəlib. Yarışın təşkilatçıları onun nailiyyətini ruhlandırıcı adlandırıblar. Aydris bununla bağlı tənqidlərə də cavab vermək məcburiyyətində qalıb və onu səhlənkarlıqda qınayan sosial şəbəkə istifadəçilərinin taekvondo haqqında heç bir şey anlamadıqlarını bildirib. “Riskli olmadığına görə sınamağa qərar verdim. Həkimim də mənə icazə verdi”, - deyə o bildirib.

## “Qalatasaray”ın futbolçusu klip çəkdirdi

“Qalatasaray”ın futbolçusu Rayan Babel özünü başqa peşədə də sınayır. Niderland millisinin üzvü eyni zamanda musiqi bəstələyir və oxuyur. Babel hətta ilk albomundakı bir mahnıya klip də çəkdirib. O, rep dediyi həmin klipdə Selma Omariyə yer verib. Albomunda 8 mahnı olduğunu söyləyən 34 yaşlı futbolçu Adje və Ço kimi musiqiçilərlə çalışdığını deyib.

R.Babel musiqi bəstələməkdən zövq aldığını açıqlayıb: “Musiqi yazmaq və oxumaq mənə ilham verir”.

## Dünya çempionuna 30 aylıq cəza verildi



Amerikalı dünya çempionu Obi İqbokve antidopinq qaydalarını pozduğu üçün 30 ay müddətinə diskvalifikasiya edilib. Bu barədə Amerika Antidopinq Agentliyinin (USADA) mətbuat xidməti məlumat verib. Anabolik steroidlər 24 yaşlı idmançıdan 2020-ci il mayın 26-da götürülən analiz nümunəsində aşkar edilib.

Obi İqbokve 2019-cu ildə Dohada keçirilən atletika üzrə dünya çempionatında 4x400 metr məsafə üzrə qarışıq estafet yarışında qalib olub.

## Dünyanın ən bahalı milliləri

Futbol üzrə milli komandaların dəyərləri açıqlanıb. Sıralama yığmaların heyətindəki futbolçularının ümumi qiymətinə uyğun aparılıb. İlk “25-liy”in açıqlandığı siyahıya Fransa millisi başçılıq edir. Dəyəri 227,1 milyon avro olan Türkiyə seçməsi də siyahıda yer alıb. Qardaş ölkənin millisi 22-ci sırada qərarlaşıb.



Qeyd edək ki, siyahıdan kənarda qalan Azərbaycan millisinin ümumi dəyəri 15,8 milyon avrodur.

1. Fransa: 1 milyard 80 milyon avro
2. İngiltərə: 1 milyard 10 milyon
3. Braziliya: 951 milyon
4. Almaniya: 942 milyon
5. İspaniya: 855 milyon
6. İtaliya: 825,5 milyon
7. Portuqaliya: 769 milyon
8. Belçika: 716 milyon
9. Argentina: 535,5 milyon
10. Niderland: 514,75 milyon
11. Uruqvay: 449,88 milyon
12. Xorvatiya: 350 milyon
13. Serbiya: 348,05 milyon
14. Kolumbiya: 307,73 milyon
15. Avstriya: 303,48 milyon
16. Danimarka: 300,3 milyon
17. İsveçrə: 264,3 milyon
18. Şotlandiya: 249,4 milyon
19. Norveç: 246,6 milyon
20. Fil Dişi Sahili: 245,58 milyon
21. Seneqal: 227,85 milyon
22. Türkiyə: 227,1 milyon
23. Mərakeş: 221,48 milyon
24. Polşa: 212,9 milyon
25. ABŞ: 208 milyon

Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19